Ədəbiyyat qəzeti

32 3 iyul 2021-ci il



**Məhəmmədəli MUSTAFAYEV**

Amansız ölüm tanınmış alim Məhəmmədəli Bayram oğlu Mustafayevi aramızdan apardı.

Məhəmmədəli Bayram oğlu Mustafayev 1958-ci il sentyabrın 1-də qədim Borçalı mahalının Başkeçid (indiki Gürcüstan Respublikasının Dmanisi) rayonundakı Az.-Göyliyən kəndində anadan olub.

1980-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. 5 il Dmanisi rayon Yuxarı Qarabulaq kəndində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib.1983-cü ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutunun aspiranturasına daxil olub (qiyabi) və 1985-ci ildən Bakıda elmi, publisistik fəaliyyətə başlayıbdır. 1989 -cu ildə akademik Kamal Talıbzadənin rəhbərliyi ilə "Azərbaycan sovet ədəbiyyatşünaslığında XIX əsr ədəbiyyatının tədqiqi problemləri (akademik F.Qasımzadənin yaradıcılığı əsasında)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Məhəmmədəli Mustafayev müxtəlif mətbuat orqanlarında ("Azərbaycan məktəbi", "Folklor və etnoqrafiya" (jurnalın elmi katibidir) jurnalı və "Ədalət" qəzeti) çalışsa da, heç vaxt elmi fəaliyyətdən ayrılmayıb. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmlər doktorluğu üzrə dissertantı kimi 2011-ci ildə "XIX əsr Azərbaycan ədəbi-tarixi prosesi müasir ədəbi-nəzəri fikirdə və ədəbiyyatşünaslıqda" mövzusunda doktorluq dissertasiyası müdafiə edib elmlər doktoru alimlik dərəcəsi alıb. 2012-ci ildən Ədəbiyyat İnstitutunda işləyirdi.

"XIX əsr ədəbi irsi ədəbiyyatşünaslıqda"(2010), "Ədəbiyyatşünaslığımızın xan çinarı" (2012) və çap üçün hazır olan "Akademik Feyzulla Qasımzadə" adlı monoqrafiyaların, 100-dən yuxarı elmi və yüzlərlə publisistik məqalənin, ali məktəblər üçün bir neçə proqramın müəllifidir.

Məhəmmədəli müəllim son illər ali məktəblər üçün "Ədəbiyyat nəzəriyyəsi" dərsliyi üzərində işləyirdi. Həmin dərslik hal-hazırda çap olunmaq üçün nəşriyyatdadır.

Elmi kadrların yetişməsində yaxından iştirak edib. Onun elmi rəhbərliyi ilə yerinə yetirilən bir fəlsəfə doktorluğu dissertasiyası müdafiə olunub, ikisi isə müdafiə ərəfəsindədir. Onlardan əlavə, fəlsəfə doktorluğu hazırlığı üzrə iki dissertantın da elmi rəhbəri idi.

Məhəmmədəli müəllim peşəkar pedaqoq kimi də tanınmışdı. Lənkəran və Sumqayıt Dövlət Universitetlərində uzun illər pedaqoji fəaliyyətlə məşğul olub.

Dünyasını dəyişənə qədər (27 iyun 2021) AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində Baş elmi işçi və Sumqayıt Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında professor vəzifəsində çalışıb.

Məhəmmədəli Mustafayevin işıqlı ziyalı obrazı, elmə bəxş etdiyi töhfələr daima yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**